## NADİR KİTABLAR, ELEKTRON XİDMƏTLƏR, TƏDQİQATÇILAR ÜÇÜN ƏLÇATANLIQ

***Şəlalə Məhyəddin qızı Quliyeva***

*Filologiya üzrə fəlsəfə doktoru*
*AMEA Mərkəzi Elmi Kitabxana,*
*Nadir kitablar fondu*
*selale_meh@mail.ru*
*Yasamal rayonu, Hüseyn Cavid pros.129*
*https://orcid.org/0000-0003-1540-3112*

***Açar sözlər:*** *Mərkəzi Elmi Kitabxana, nadir kitablar, məsafədən kitabxana xidməti, rəqəmsal kitab, elektron kitabxana*

***Ключевые слова:*** *Центральная научная библиотека, редкие книги, дистанционное библиотечное обслуживание, цифровая книга, электронная библиотека*

***Keywords:*** *Central Scientific Library, rare books, online library service, digital book, electronic library*

**Xülasə:** AMEA-nın Mərkəzi Elmi Kitabxanasında nadir kitablar elektronlaşdırılır. Oxuculara müasir dövrün tələblərinə uyğun yüksək səviyyədə xidmətin təşkili üçün qədim nəşrlərin, əntiq ədəbiyyatın, kitab abidələri siyahısında yer alan unikal əsərlərin orijinallığına xələl gətirilmədən, ehtiyatla skan aparatları ilə üzləri köçürülür, konvertasiya olunur və prosesin yekununda qurumun saytında yerləşdirilir. Bu il yüz yaşı tamam olan Mərkəzi Elmi Kitabxananın “Nadir kitablar” fondu 1998-ci ildə yaradılıb. Fondda elmin bütün sahələrinə dair müxtəlif dillərdə, 12 minə yaxın sənəd toplanıb. Tədqiqatçıların ən çox müraciət etdikləri numizmat alim, Y.A.Paxomovun şəxsi kitab kolleksiyası rəqəmsallaşdırılır. Azərbaycan haqqında, Bakı neftinə, Qarabağın tarixinə, eləcə də dünya ədəbiyyatına aid elmi əsərlər virtual aləmdə nümayiş olunur. Fondun ən qədim kitabı, yaşı 1502-ci ildən başlayan “Heptalogiya” adlı monoqrafiyada müxtəlif elm sahələrinin problematik mövzularına toxunulub ki, məhz bugünkü gündə də, bəşəri inqilablar dövründə belə alimləri düşündürən, hələ problem kimi qalan məsələləri özündə əks etdirir. Elmi ədəbiyyatın əlçatan olması alimlərə yeni imkanlar açır, yaradıcılıq üçün münbit şərait yaradır.

**Резюме:** В Центральной научной библиотеке НАНА ведется оцифровка редких книг. Для того чтобы предоставить читателям высочайший уровень обслуживания, соответствующий требованиям современной эпохи, старинные издания, антикварная литература и уникальные произведения, входящие в список книжных памятников, тщательно сканируются, конвертируются и по завершении процесса размещаются на сайте учреждения, не теряя при этом своей оригинальности. Фонд редких книг Центральной научной библиотеки, которой в этом году исполняется 100 лет, был создан в 1998 году. В фонде собрано около 12 000 документов и хранится литература на разных языках по всем отраслям науки. Личная коллекция книг ученого нумизмата Ю.А. Пахомова, к которому чаще всего обращаются исследователи, проходит оцифровку. В виртуальном мире представлены научные труды, связанные с Азербайджаном, бакинской нефтью, историей Карабаха, а также мировой литературой. Старейшая книга Фонда, монография «Гептология», датируемая 1502 годом, затрагивает проблемные темы в различных областях науки, отражая вопросы, которые до сих пор остаются проблемными и озадачивали ученых даже в эпоху человеческих революций. Доступность научной литературы открывает новые возможности для ученых и создает благоприятные условия для творчества.

**Summary:** Rare books are being digitized at the Central Scientific Library of ANAS. In order to provide readers with the highest level of service in accordance with the requirements of the modern

era, ancient publications, antique literature, and unique works included in the list of book monuments are carefully copied, converted, and placed on the institution's website without damaging their originality using scanners. The Rare Books Fund of the Central Scientific Library was established in 1998. The fund has collected about 12 thousand documents, preserving literature in various languages on all fields of science. The personal book collection of the numismatist scientist Y.A. Pakhomov is being digitized.

The monograph "Heptalogy", which dates back to 1502, touches upon problematic topics in various scientific fields, reflecting issues that still remain a problem for scientists even during the era of human revolutions. The accessibility of scientific literature opens up new opportunities for scientists and creates suitable conditions for creativity.

Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında "Nadir kitablar" fondu 1998-ci ildə yaradılıb. Sənədlər əsasən rus, ingilis, alman, fransız, ispan, italyan və latın dillərindədir. Hazırda fondda olan bütün kitabların elektron kataloqu hazırlanır (1, 289). Görülən işlər, həyata keçirilən layihələr barədə ətraflı məlumat 2025-ci ildə Mərkəzi Elmi Kitabxanada keçirilən "AMEA-da elektron kitabxana yeni mərhələdə" adlı təqdimat mərasimində ictimaiyyətin diqqətinə çatdırılıb [2, 4].

Fondda Azərbaycan Respublikasının kitabxanaları arasında ən qədim 22 kitab mühafizə olunur. Kitablar ölü hesab olunan latın dilində, qədim Roma İmperiyası haqqında, tarix, kilsə və dini mövzularda yazılan elmi əsərlərdir. 1502-1572-ci illəri əhatə edən həmin qədim kitablar da "Azərbaycan Respublikasının kitab abidələri"nə daxil edilib.

Latın dilində olan ən qədim kitabların annotasiyalarının Azərbaycan dilində yazılmasında Bakı Slavyan Universitetinin Ümumi dilçilik kafedrasının professoru Aslan Məmmədlinin fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Alim təmənnasız, könüllü olaraq kitabxanaya kömək edib. Kitablardan nəşr tarixinə görə ən qədimi 1502-ci ilə aid, P-5098 şifrəsində olan "Heptalogium ex diversis paginis atque auctorum officinis congestum" kitabıdır. Kitabın annotasiyasında bildirilir: "Kitabda müxtəlif elm sahələri ilə əlaqədar müəllifin fikirləri qeyd edilib: ritorika, arifmetika, etimologiya, orfoqrafiya, musiqi, astronomiya, həndəsə, təbii fəlsəfə, mənəvi fəlsəfə, poetika, tarix, tibb, xiromantiya, digər humanitar elmlər və bu elm sahələrindəki problemlərdən bəhs olunub.

Digər bir əsər, 1508-ci ildə qədim latın dilində nəşr olunmuş "Aristotelin iqtisadiyyatına dair Leonardo Aretininin fikirləri" adında kitabdır. Müəllifi – Leonardo Bruni (Aretini – Aretiyadan olduğunu göstərir) – Florensiya Respublikasının kansleri olmuşdur. Əslində Aristotelin iqtisadiyyata aid belə bir əsəri yoxdur. Müəllif əsəri populyarlaşdırmaq üçün Aristotelin əsəri kimi təqdim etmişdir. Əsərin müəllifi III əsr eramızdan əvvəl Yunanıstanda yaşayan naməlum alimdir. Yunan dilindən latına Leonardo Bruni tərəfindən tərcümə edilmişdir. Kitab cəmiyyətin müxtəlif sahələrində insanlar arasında olan münasibətdən, etik normalardan və mənəviyyatdan bəhs edir.

Digər qədim nəşrlərdən biri də 1533-cü ilə aid (P-4719) latın dilində yazılmış Flavius Blondusun müəllifi olduğu kitabdır. Müəllifin qədim Romaya həsr etdiyi silsilə kitablardan onuncusudur. Kitab qədim romalıların yaratdığı dövlət və mədəniyyəti tərənnüm etdiyindən, Romanın qələbəsi, təntənəsi adlanır. Romanın inzibati və hərbi qurumlarını nümunəvi hesab edir və müasir italiyalılara qədim Romanı özlərinə örnək seçməyi məsləhət görür, onları romalılar kimi vətənpərvər olmağa çağırır.

"Nadir kitablar" fondunda səhifələrinin kənarı qızıl suyu ilə işlənmiş, dəri materialı ilə cildlənmiş, üz qabığı təbii firuzə qaşlarla bəzədilmiş kitablar mühafizə olunur. Kənarları qızıl suyuna salınmış, Stieler Karlın "İtalien – Eine Wanderung von den Alpen bis zum Aetna" kitabı 1880-ci ildə çap olunub. Kitab müəllifin səfəri zamanı gördüklərindən, yəni Florensiya, Roma, Neapol, və başqa şəhərlərin əsrarəngiz gözəlliklərindən, şəhər sakinlərinin həyat tərzindən bəhs edir. Əsərdə antik şəhərlər olan Pompey, Kolizey, Ponteon və digər tarixi abidələrdən də söhbət açılıb.

Fondun həcmcə ən iri kitabı (54x64 sm) – Edwart Stebbinqin “The Holy Carpet of the Mosque at Ardebıl – London, 1893” kitabıdır. Bu əsər ingilis dilindədir. Kitabda Ərdəbil namazlıq xalçalarının eskizləri təsvir olunub.

Ən balaca kitab (3,5x4,5 sm) isə – Belarus şairi Yanka Kupalanın şeirlər məcmuəsidir. Fondda tərtibatı ilə xüsusi olaraq seçilən ədəbiyyat firuzə qaşlarla bəzədilmiş Ebers G. Aegypten: İm Bild und Wort. – Stutgart; Leipzig, 1879 kitabıdır. Burada əsər Napoleon Bonopartın “Misir ekspedisiyası” adı altında Misirə daxil olması ilə bağlıdır. Misirin əsas tarixi hadisələri, adət-ənənələri, Şərqin qədim universitetlərindən biri olan Əl-Əzhər İslam Universiteti haqqında geniş məlumat verilib.

Orta əsrlər Azərbaycan incəsənətinin ən parlaq səhifələrindən olan orta əsr miniatür boyakarlığı nəinki orta əsr müsəlman sivilizasiyasını, hətta bütün dünya incəsənətini misilsiz dərəcədə zənginləşdirmişdir. Azərbaycan miniatür sənəti özünəməxsus orijinallığı, zənginliyi və rəngarəngliyi ilə seçilir. Bunu əyani şəkildə biz 1980-ci ildə nəşr olunmuş K.Kərimovun “Azərbaycan miniatürləri” kitabında görürük (N-369).

Kitab illüstrasiyası kimi yaranıb formalaşan Azərbaycan miniatür sənətinin təşəkkül tarixi dəqiq müəyyən edilməmişdir. Lakin XIII əsrin əvvəllərində Əbdülmömin Məhəmməd Əl-Xoyinin “Vərqa və Gülşa” əlyazmasına çəkdiyi miniatürlərin (Topqapı muzeyi, İstambul) üslubu, bədii sənətkarlıq xüsusiyyətləri bu miniatürlərin ilkin olmadığını, müəyyən bir ənənəyə əsaslandığını və miniatür sənətinin daha qədimdən mövcud olduğunu göstərir. Azərbaycan miniatür sənətinin Təbriz miniatür məktəbini xüsusilə qeyd etmək lazımdır. Buna misal olaraq C. Həsənzadənin “Təbrizin solmayan boyaları” kitabının adını çəkə bilərik.

Hər xalqın mədəniyyət tarixində elə bir sənət sahəsi var ki, orada onun zəngin mənəvi aləmi əks olunmuş, xarakteri, intellekti, dünyagörüşü, estetikası və həyat fəlsəfəsinə xas olan köklü xüsusiyyətlər təcəssümünü tapmışdır. Azərbaycan xalqı üçün belə sənət növü xalçaçılıqdır. Xalçaçılıq sənəti mahiyyətcə humanist və məişətdə istifadəsinə görə çoxfunksiyalı sənətdir. Xalça insan üçün rahatlıq, səliqə yaradır, mənzilə hərarət gətirir, interyeri canlandırır, estetik zövq mənbəyi olur. Bu mənada R.Tağıyevanın 1999-cu ildə çap olunmuş “Azərbaycan xalçası” kitabını xüsusi qeyd etmək olar.

“Nadir kitablar” fondunda çox geniş formada bütün elm sahələrini əhatə edən universal xarakterli ensiklopediyalar mövcuddur.

XIX əsrdə Broxqauz-Efron tərəfindən nəşr olunmuş Ensiklopedik lüğət (82 cild), XIX əsrdə nəşr olunan Ensiklopedik lüğət “Qranat” (44 cild), 1875-ci il nəşri ingilis dilində “Britanika” (31 cild), 1946-cı il nəşri “Britanika” (20 cild), 1944-cü il nəşri Amerika ensiklopediyası (28 cild), Londonda nəşr olunmuş “Yeni universal ensiklopediya” (14 cild), 1994-cü ildə nəşr olunmuş “Dünya kitabı” ensiklopediyası (22 cild) oxucuların diqqətini daha çox çəkir və onlara tez-tez müraciətlər olur. Həmçinin alman dilində 1977-ci ildə nəşr edilmiş 15 cilddə “Mayerin yeni lüğəti” universal ensiklopediyadır. Fransız dilində isə “P. Larousse”, “Qrand ensiklopedi”, “Universales” ensiklopediyaları da fonddakı nadir nümunələrdəndir.

Fondda dünya ədəbiyyatına aid nümunələr, müxtəlif xalqların maddi və mədəni dəyərlərini əks etdirən elmi əsərlər də yetərincədir. Məsələn, “Pope A.U. A survey of Persian Art : From prehistoric times to the present” adlı kitabın adını çəkə bilərik. Bu, İran incəsənətinə aid məcmuədir. Fondumuzda 10 cildi var. Kitablarda erkən islam dövründən fars memarlığının tarixi, məscid, minarə və digər memarlıq abidələri, Sasanilər, Teymurilər, Səfəvilər dövründə tikililər, eləcə də keramika üzərində bəzəklər və dulusçuluq sənətindən bəhs olunur. Burada xüsusi ecazkarlığa malik olan Şərq miniatürləri də oxucular üçün xüsusi maraq kəsb edə bilər.

Fondda XIX əsrin sonunda nəşr edilmiş ən qiymətli 500 kitab xüsusi mühafizə rejimində, turşusuz kartondan düzəldilmiş mikroiqlimli konteynerlərdə qorunub saxlanılır.

“Nadir kitablar” fondunda müxtəlif kolleksiyalar da mövcuddur. Bunlardan ən zəngini tanınmış numizmat - alim Yevgeni Aleksandroviç Paxomovun şəxsi kitab kolleksiyasıdır. Y.A. Paxomov

2 minillik tarixə malik zəngin Azərbaycan numizmatik irsinin ilk toplayıcısı və tədqiqatçısı olub. Alimin vəfatından sonra ailəsi tərəfindən onun kitabları Mərkəzi Elmi Kitabxanaya bağışlanıb. Bugünkü gündə oxucular tərəfindən həmin kolleksiyaya böyük maraq var. Paxomovun Bakı Xalq Təhsili İnstitutunda oxuduğu mühazirələr 1923-cü ildə cəmləşdirilib "Azərbaycan tarixinin qısa kursu" adı ilə nəşr edilib. Bu, qədim diyarımızın tarixinə dair ilk dərsliklərdən biridir.

Y.A.Paxomov Azərbaycan Tarixi Muzeyində zənginliyinə və dəyərinə görə keçmiş SSRİ-də şöhrət qazanmış Yaxın və Orta Şərq, Qədim Roma imperiyası və Yunanıstan, habelə Rusiya sikkələrindən ibarət olan nadir numizmatika kolleksiyasını yaratmışdır. İlk əvvəl 103 sikkənin saxlandığı muzey kolleksiyasını o, 30000 nüsxəyə çatdırmışdır. Tarixçi alim Azərbaycanda və Qafqazda sikkə dəfinələrinə dair silsilə əsərlər hazırlayıb nəşr etdirmişdir. 1959-cu ildə onun "Azərbaycan sikkələri" monoqrafiyasının I buraxılışı dərc olunmuşdur.

Y.A. Paxomov 1946-cı ildə "Azərbaycanın və Qafqazın dəfinələrinə dair" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1947-ci ildə ona professor elmi adı verilmiş, 1962-ci ildə isə alim Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. 1955-ci ildə Y.A. Paxomov Azərbaycan SSR Əməkdar Elm Xadimi adına layiq görülmüşdür. Elmin inkişafındakı xidmətlərinə və səmərəli pedaqoji fəaliyyətinə görə Y.A. Paxomov "Şərəf nişanı" ordeni və bir neçə medalla təltif olunmuşdur.

Burada Azərbaycan numizmatikasına aid ilk kitablardan olan "Azərbaycan tarixi muzeyinin sikkə kolleksiyası" (1928), "Azərbaycanın sikkələri" (1959), Sabirabadda (1926), Çaykənddə (1935), Bərdədə (1940), Maştağada (1952) aşkar olunmuş sikkələr haqqında elmi əsərlər kolleksiyanın incilərindən sayıla bilər. Öz əsərlərində alim sikkələrin tapılmasını Azərbaycanın tarixi hadisələri və o dövrün sosial-iqtisadi tarixi ilə əlaqələndirirdi. Buna bariz nümünə Qafqaz Albaniyasının, Azərbaycanın orta əsr şəhərlərinin (Bərdə, Naxçıvan, Mingəçevir, Orənqala) sikkələri haqqında məqalələrdir. Bundan başqa "Sasanilərin sikkə nişanları" (1945), "1929-cu il Gəncə xəzinəsi və Qafqazda ərəb ticarətinin dönüşü" (1935), "XV əsrdə Azərbaycanda sikkə işi" (1943) və s.elmi işlərini nümünə göstərmək olar.

2016-cı ilin əvvəllərində MEK-in təşəbbüsü ilə poçt nişanı kolleksiyası yaradılıb. Kolleksiyanın yaradılmasında Azərmarka MMC şirkətinin böyük köməyi olmuşdur. Şirkət Azərbaycanda çap edilmiş markaların elektron variantını kitabxanaya təqdim edir.

AMEA Mərkəzi Elmi Kitabxananın "Nadir kitablar" fondunda müniatür kitablar mühafizə olunur. Estetik cəhətdən kitablara nəzər saldıqda görürük ki, bu kitablar müxtəlif materiallardan hazırlanıb. Kitabların ölçülərinə gəldikdə, onlaırn ən böyüyü 13 sm, ən kiçiyi isə 5 sm-dir. Kolleksiyada dahi şəxsiyyətlər haqqında çap olunmuş minüatür nəşrlər də yer alır. Bu kitablar əsasən Moskva Mərkəzi Kitab kollektorundan alınıb və kitab mübadiləsi yolu ilə əldə edilib.

Azərbaycan Xalq Cümhuriyyəti (AXC) süqut etdikdən sonra respublikanın yaradılmasında iştirak etmiş insanların çoxu repressiya qurbanlarına çevrilib. Repressiya illərində Azərbaycan ərazisindən 100 minə yaxın ziyalı, hərbçi, mədəniyyət və incəsənət xadimi, alim, yazıçı, müəllim və din xadimi Sibirə, Qazaxıstana, o cümlədən digər yerlərə sürgün edilib. Sürgün olunduqları yerdə dünyasını dəyişdiyindən, harada dəfn olunmaları haqqında heç bir məlumat göstərilməyib. Həmin insanların qürbətdə tapılmış məzarlarını əks etdirən "Xaricdə yaşamış azərbaycanlıların məzarları" kolleksiyası 53 fotodan ibarətdir. Məzarı bəlli olmayan insanların axtarışına gəlincə...MEK tədqiqatçıların yazılarından istifadə etməklə, həmin insanlar haqqında "Məzarı tapılmayan azərbaycanlı azadlıq fədailəri və repressiya qurbanları" adlı siyahı hazırlayıb. Siyahı araşdırmaçı Şəmistan Nəzirlinin "Arxivlərin sirri açılır" əsəri, Nəsiman Yaqublunun cümhuriyyətlə bağlı yazıları və müxtəlif internet portallarındakı məlumatlar əsasında tərtib edilib. Bütün bu əsərlərin elektron kitabxanada yer alması, ənənəvi kitabxanaların elektron mühitə keçid prosesləri, korporativ elektron kitabxana şəbəkələrinin formalaşmasında ilkin təcrübələr müasir gündə öz bəhrəsini verir. Elektron kitabxanaların yeni ten-

densiyaları üzə çıxır, qlobal mühitdə və yerli kitabxanalarda özəl yanaşmalar bu sahənin inkişafına şərait yaradır [1, 289].

"Əla texniki avadanlıqlarla, kompüter və surətçıxarma texnikası ilə təchiz edilmiş zəngin maddi-texniki bazaya mailk olan kitabxanalar ən müasir təbliğat üsullarından rahat və məqsədyönlü şəkildə istifadə edir" [3, 211]. Bu mənada Mərkəzi Elmi Kitabxanada dövrün tələbləri səviyyəsində xidmət qurulub. "Nadir kitablar" fondunda saxlanılan müxtəlif məzmunlu ədəbiyyatın da rəqəmsallaşdırılması onun geniş istifadəsinə imkan yaradır. Bu gün oxucular internet vasitəsilə, onlayn şəkildə elektron kitabxana xidmətindən yararlanırlar. Rəqəmsallaşan kitablar isə orijinal variantın tam şəkildə qorunmasına, daha uzun müddət mühafizəsinə səbəb olur.

**Ədəbiyyat**

1. *Xələfov A.A., Hüseynova A.S.* Elektron kataloqun əhəmiyyəti və təşkili prinsipləri // BDU-nun Xəbərləri.-humanitar ser.- 2004.- №4.- S.288-290.

2. *Xələfov A.A, Məmmədov Ə.* Kitabxana dünyasına açılan pəncərə (AMEA MEK-in tərtib etdiyi Vebbioqrafiya adlı göstəricidən, onun axtarış imkanlarından və onlayn texnologiyalarının kitabxana işi üçün əhəmiyyətindən bəhs olunur) // Respublika.- 2005.- 27, 28 yanvar.

3. *Rzayev S.* Kitabxana xidməti.-Bakı: Bakı Universiteti, 2012, 275 s.